# Azerbaycan Elmi-Pedagoji Fikri ve "Üsuli-Cedid" Mektepleri

Prof. Dr. Elizade Esgerli*

***Sosial-siyasi ve medeni şerait. "Üsuli-cedid" mekteblerinin teşekkülü ve nümayendeleri. Yayılma coğrafiyası. Müellim kadroları hazırlığı. Gori Müellimler Seminariyası ve onun Azerbaycan şöbesi. Tehsilde osmanlıperestlik. Tehsilde rusperestlik. Anadilli, millî ruhlu, dünyevi mezmunlu mekteblerin yaranması. Mektebin tipleri. Program ve derslikler. "Debistan", "Rehber" ve "Mekteb" jurnallarında maarif meseleleri. XX. esrin evvellerinde tehsilin inkişafı. Heyriyye cemiyyetleri. Azerbaycan Müellimlerinin I, II ve III gurultayları. A.Şaigin ana dili uğrunda mübarizesi. M.E.Sabir, A.Sehhet, Gafur Reşad ve başgalarının maarifçilik fealiyyeti. Millî elm ve tehsilin inkişafında F.Köçerlinin rolu. Azerbaycan Halg Cümhuriyyeti dövründe elm ve tehsil.***

Azerbaycanda elm, tehsil ve maarifin teşekkülü, esasen, XIX esrin II. yarısına aiddir. Gafgazda kapitalist igtisadi münasibetleri elm, tehsil ve maarifi herekete getirmişdi. Bu sahede Rus maarifçileri mühüm rol oynamışdılar. Bu bahımdan A.Bakıhanov, M.F.Ahundzade, M.Ş.Vazeh, İ.Gaspıralı, K.Uşinski ve başgalarının hidmetleri böyük olmuşdur. Avropada klasisizm sengimiş, Fransa burjuva ingilabları neticesinde J.J.Russo, Volter kimi ilk Avropa maarifçileri yetişmişdi. Maarifçilik herekatı Rusiyaya, oradan Azerbaycana yayılmışdı. Elm, tehsil ve maarif sahesinde görkemli hadimler meydana gelmişdi. XIX esrin II yarısından sonra maarifçilik ictimai-pedagoji fikrin bütün sahelerini ehate etmiş, millî şüuru yetirmişdi. Halgın maariflenmesi ile milletin tereggisi mümkün olmuşdu.

* AMEA Nizami adına Edebiyyat İnstitunun baş elmi işçisi filologiya elmleri doktoru professor.

Bu bahımdan demeliyik ki, XIX. esrin II. yarısından "üsuli-cedid" adlandırılan mektebler Guzey ve Güney Azerbaycanı, Türkiye, İrevan, Gürcüstan ve Rusiya sosial-siyasi, igtisadi-medeni münasibetlerine esaslanmışdır.

Azerbaycanda humanitar fikir istigameti, elbette Türkiye, İran ve Rusya amili ile bağlı olmuşdur. Bir anlıg C.Memmedguluzadenin "Anamın Kitabı" dramını hatırlayalım. Eserde Azerbaycan, ümumen Şerg tehsil sisteminin Fars, Rus ve Türk edebi-ictimai mühiti ile bağlı olmasının incelikleri ifadesini tapmışdı. Dediyimiz odur ki, XIX esrin II yarısından sonra elm ve tehsil üsulunun esasları İran, Türkiye ve Rusiya ile müeyyenleşirdi.

Azerbaycanda ve Türkiyede kapitalist igtisadi münasibetleri "üsuli-cedid" deyilen millî herekatçılığı doğurmuşdu. Bu da tebii ki, elm ve tedrisin inkişafına mühüm tesir göstermişdi. Gafgaziya'da, ümumen, Şergde İran, Türkiye ve Rusiya sosial-siyasi ve menevi strukturlara tesir ederek mövge üstünlüyünü elde sahlamag istemişdi. Hatırlayağın İran-Rus ve Türk-Rus müharibelerini. Hemin müharibelerin neticeleri olarag Azerbaycanda maarif ve medeniyyet işi öz harakterini müeyyenleşdirmişdi.

XIX. esrin II yarısında mövcud maarifçilik tedrisde de bir yenilik doğurmuşdu. Mollahana, medrese tipli mektebler, fanatizm ve mövhumatı tebliğ eden telimler zeiflemiş, millî ruhlu, dünyevi harakterli mekteb-ders üsullu yaranmağa başlamışdı. Elbette, bunun sosial-siyasi ve medeni-kulturoloji sebebleri var idi.

İran, Türkiye, Rusiya ve Azerbaycan münasibetlerini nezere alsag, demeliyik ki, ölkemizde mövcud olmuş elm ve tehsil üsulu İran, Türkiye ve Rusiya'da geniş menada ümumilik teşkil etmişdir. Elbette, burada İrevan ve Gürcüstan istisna deyildir. Bu bahımdan demeliyik ki, XIX. esrin II. yarısından "üsuli-cedid" adlandırılan mektebler Guzey ve Güney Azerbaycanı, Türkiye, İrevan, Gürcüstan ve Rusiya sosial-siyasi, igtisadi-medeni münasibetlerine esaslanmışdır. "Üsuli-cedid" maarifçilik herekatı Osmanlı Ebdülhemid Türkiyesi, Nikolay Rusiyası, Mehemmedeli İran üsuli-idaresi üçün ortag mekan olmuşdu.

Bes "Üsuli-cedid" deyilen tedris üsulu hansı tarihi şeraitde meydana gelmişdi? Yaranmağının mügeddem şertleri nece idi? "Dersi-üsuli-cedid" millî zeminde meydana geldiyinden millî mesele idi. Ortodoksal skolastik elm ve telimi dünyevi tefekkür üstelediyinden yeni üsullu mekteb ve telimlerin meydana gelmesi üçün sosial-siyasi şerait yetişmişdi. En esası bu idi ki, millî maarifçilik herekatı halg içerisine getmişdi, bütün zehmetkeş tebegeleri herekete getirmişdi. "Üsuli-cedid"çilikde millîlik,

dünyevilik ve helgilik başlıca amil olmuşdu. Bir az da konkretleşdirsek, "cedidçilik" Bakı, Guba, Şuşa, Şeki, Zagatala, İrevan, Nahçıvan, Gazah, Gence, Tiflis, Tebriz, Şamahı, Lenkeran, Cebrayıl erazilerini ehate etmişdi.

"Üsuli-cedid" mektebleri ortag edebi fikir bahımından Bağçasaraydan başlamışdı. Bu herekat Kırım Tatarı olan İsmayıl Bey Gaspıralı'nın adı ile bağlı olmuşdur. İ.Gaspıralı 1851. ilde Kırım'ın Ovçuköy kendinde, herbçi ailesinde doğulmuşdu. "Gaspıra" onun atası Mustafa ağanın doğulduğu yerin adıdır. İ.Gaspıralı'nın ictimai-pedagoji dünya görüşünün formalaşması Rusiya ile bağlıdır. Atası Odessa gimnaziyasını bitirmişdi. Dövrünün mütereggi ziyalısı olmuşdu. İ.Gaspıralı'nın heyatının müeyyen müddeti Bağçasaray'da keçmişdi, evvel medrese tehsili almış, sonra Simferepol ve Voronej'de Rus mekteblerinde ohumuşdu.

En esası bu idi ki, millî maarifçilik herekatı halg içerisine getmişdi, bütün zehmetkeş tebegeleri herekete getirmişdi. "Üsuli-cedid"çilikde millîlik, dünyevilik ve helgilik başlıca amil olmuşdu.

Rusiya'da tehsil islahatları ile tanış olan İ.Gaspıralı mensub olduğu erazide – Bağçasaray'da yeni tipli mekteb teşkil etmeye başlamışdı. O, millî mefkuresinin esaslarını "Rusiya Müselmanları" (1881) adlı eserinde ifade etmişdir. İ.Gaspıralı islahatı ibtidai mekteblerden tedricen başlamışdı. Bildirirdi ki, dersler Guranı ohumag ve yazmagdan, namaz gılmag ve İslam tarihini öyrenmekden başlamalıdır (Dini yoh, tamamile dünyevi haraktlerde! Bu günkü orta mekteb tedrisini hatırlayalım/?/). Telimin esasında millî mezmun dayanmalıdır, yeni Türk dili, onun fonetik, morfoloji ve sintaktik esasları öyredilmelidir. Dünyevi bilikler sırasından riyaziyyat, coğrafiya, dunya tarihi, anatomiya ve başga fenler tedris edilmelidir. İ.Gaspıralı yazırdı: "Rusiya Türklerinde 16 mine yahın mehelle mektebi, 214 medrese var. Burada yalnız Guran ve namaz duaları öyredilir. Uşaglar Türkce beş setir ohumağı ve yazmağı öyrenmeden Guranı bitirirler." O, bu sebebden Bağçasaray'da "üsuli-cedid" mektebi açmış, Türk dünyasına, ümumtürk fikir ve düşüncesine güclü tesir göstermişdir.

Elbette, bele düşünmek olmazdı ki, İ.Gaspıralı'nın "üsuli-cedid" mektebinden sonra, başga "üsuli-cedid" mektebleri yaranmağa başlamışdı. Bu bir ideya-nezeri başlangıc – herekatçılıg olub tedricen coğrafi erazilere yayılmış, yeni mekteblerin açılmasına şerait yaratmışdı. XIX. esrin 60. illerinden başlayarag bu herekatların özülü goyulmuşdur.

Bes bu "üsuli-cedide" sosial-siyasi münasibet nece olmuşdur? Bu bahımdan Guzey ve Güney Azerbaycan, Türkiye ve Rusiyanın sosial-siyasi ve medeni mövgeyi nezere alınmalıdır. Tebii ki, kadro siyaseti aparılmadan, müellim kadroları yetişdirmeden tedris işini heyata keçirmek olmazdı. Bes kadro siyaseti nece heyata keçirilmişdi? Elbette, her

hansı siyasi-igtisadi ve menevi mühitin üstünlüyü şeraitinde. Bele bir mühit ise Rusiya olmuşdu.

Azerbaycanda medeni şeraitin yetişmesi görkemli ziyalıların adı ile bağlıdır. XIX. esrin böyük alimi, professor Mirze Kazım bey A.Bakıhanov'un Fars dili grammatikasına rey vermişdi. M.F.Ahundzade'nin Ereb elifbasını deyişmesinde onu müdafie etmişdi. Türk dilinin elmi grammatikasının yazılmasında böyük emeyi olmuşdu. Elifba islahatı meselesinde M.F.Ahundzade'ni müdafie edenlerden biri M.Şahtahtinski olmuşdu. O, "Tekmilleşmiş müselman elifbeyi" adlı ilk kitabını (1879) Tiflis'de neşr etdirmişdi. M.Şahtahtinski elmi fealiyyete Almaniya'da başlamışdı, Şerg tarihinden tedgigatları var idi. Beynelhalg Fonetika Cemiyyeti (1899), Beynelhalg Asiya Cemiyyeti (1900), Rusiya İmperator Coğrafiya Cemiyyeti Gafgaz şöbesinin (1903) hegigi üzvü, Bakı Dövlet Universitetinin professoru (1920) olmuşdu. M.Şahtahtlı "Московские ведомости" gezetinin İstanbul'dakı mühbiri, 1891-1893. illerde "Kaspi" gezetinin müveggeti redaktoru işlemişdi, Avropa'da, Paris'te yaşamışdı. Fransa kollecinde Şerg dillerinden ders demişdi. Sorbonna Universiteti'nde fonetika sahesinde tedgigat aparmış, Fransa Maarif Nazirliyi'nin fehri diplomunu almışdı. 1902. ilde Tiflis'de "Geyret" metbeesini açmış, 1903. ilde "Şergi-Rus" gezetini neşr etdirmişdi. Azerbaycan Halk Hakimiyyeti dövründe Bakı Universiteti'nde Şerg dillerinden ve edebiyyatından mühazireler ohumuşdu.

Müellim kadroları hazırlığı Cenubi Gafgaz'dan başlamışdı. İlk müessise 1866. ilde yaradılmış, Tiflis Aleksandrovski Müellimler İnstitutu (1866-1919) olmuş, şeher üçün müellim kadroları hazırlamışdır. 1896. ilde Şemsi Esedullayev onun fehri müdiri seçilmişdir. Tehsil pullu (paralı), Rus dilinde idi. Mektebe Gafgaz'da yaşayan gencler gebul edilirdi. Görkemli halg maarifperverleri Sultan Mecid Genizade, Hebib bey Mahmudbeyov, Süleyman bey Ebdürrehmanbeyov hemin institutda ohumuşdu.

XIX. esrin ilk mekteb tipi seminariyalar olmuş ve 1871. ilde Kuban'da yaradılmışdır. 1876. ilde ise Gürcüstan'ın Gori şeherinde açılmışdır. Ne üçün bele? Çünki Azerbaycan XIX. esrin evvellerinden Rusiya terefinden işğal olunmuşdu. Sosial-siyasi ve menevi teşkilatlar onun elinde cemleşmişdi. Çar canişinliyi ise Tiflis'de yaradılmışdı. Şeher edebi-medeni mühit hesab olunurdu. Odur ki, ilk bele mektebler ya Rusiya şeherlerinde, ya da Tiflis'de açılmalı idi. Zagafgaziya Müellimler Seminariyası bele yaranmışdı. Mekteb 1876. ilde Gori şeherinde fealiyyete başlamışdı. Üç şöbesi olmuşdur: Rus, Gürcü, Ermeni. 1879. ilde Azerbaycan'da müellim kadroları hazırlığı megsedile seminariyanın Azerbaycan (Tatar) şöbesi açılmışdı. Yerlerde ilk tehsil forması ibtidai mektebler idi. Bundan sonra seminariyada ohumag, pedagoji tecrübe keçmek olardı. Azerbaycan şöbesinin ilk müdiri Hristian olan Aleksey Osinoviç Çerniyayevski idi. O, Şamahı'da doğulmuş, ilk tehsilini geza mektebinde almışdı.

A.O.Çernyayevski 1866. ilde Şamahı'nın Mereze kendinde ilk halg mektebini açmış, pulsuz müellimlik etmişdi. O, K.Uşinski'nin davamçısı idi, millî başlangıca üstünlük verirdi. A.O.Çerniyayevski şergde ilk "Veten dili" (1882) dersliyinin müellifi idi. Eyni zamanda S.Velibeyov'la birlikde "Rus dili" (1883) dersliyini ve "Veten dili" dersliyinin ikinci hissesini (1888) yazmışdı. A.O.Çernyayevski "cedide"sinin mehsusi hüsusiyyeti Azerbaycanlı uşagların telim-terbiyesi ile bağlı olmuşdur (Bu işin ne geder çetin olduğunu İ.Şıhlının "Deli Kür" romanından hatırlayayım, eserde A.O. Çernyayevskinin tebii obrazı yaradılmışdır). F.Köçerli yazırdı ki, "bizim egidemize göre K.Uşinski'nin "Родное слово" ("Ana dili") dersliyi Rus mektebleri üçün hansı ehemiyyete malikdirse, A.O.Çernyayevskinin "Veten dili" dersliyi de Azerbaycanlılar üçün ele bir ehemiyyete malikdir." (F.Köçerli. Seçilmiş eserleri. Bakı, 1963, s.242)

Seminariyanın nezdinde ibtidai mekteb açılmışdır. Şeriet, Rus dili, hesab, tarih, edebiyyat, resm, hendese, Azerbaycan dili fenleri – dini ve dünyevi bilikler öyredilmişdir. A.O.Çernyayevski 14 il seminariyanın Azerbaycan şöbesinin inspektoru işlemişdir. Seminariyanın müellim kadroları ve telebleri çoh olmuşdur.

Mirze Hüseyn Efendi Gayıbzade 1879-1881. illerde seminariyada Şerg ve Azerbaycan dillerinden ders demişdir. "Nümuneyi-lehceyi Azerbaycan", "Mügeddes tarih ve serf-nehv", "Yeniyetmeler üçün elmin esasları", "Dünyevi hesab elminin meseleleri" adlı dersliklerini yazmışdır.

M.H.Gayıbzade özünün mevacibi hesabına 43 nefer Azerbaycanlı seminaristi ohutmuşdur. Reşid bey Efendiyev, Firudin bey Köçerli, Teymur bey Bayramelibeyov, Memmed ağa Vekilov, Sefereli bey Velibeyov ve başgalarını. "Üsuli-cedid" mektebinin görkemli nümayendesi S.E.Şirvani Şamahı şeher mektebinden uzaglaşdırılandan sonra M.H.Gayıbzadeye müraciet etmiş, müellimliye gayıtması üçün ondan kömek istemişdir. S.E.Şirvaninin ona hesr etdiyi 84 misralıg gesidesi vardır.

M.H.Gayıbzade gızları Nigar ve Gövher hanımı ohutmuşdur. Onlar Rus dilinde Tiflis Nüceba Gızlar İnstitutu'nda tehsil almışlar. Hetta, Gövher Gayıbova 1903. ilde M.F.Ahundov adına Azerbaycan Millî Kitabhanasının esasının goyulmasında yahından iştirak etmişdir. M.H.Gayıbzade 1917. ilde Tiflis'de vefat etdiyinde, Tiflis ve Bakı Guberniyaları'nın tehsil müessiselerinde dersler dörd gün dayandırılmışdı.

Azerbaycanlılar'ın tehsili sahesinde böyük hidmetleri olan Ebdüsselam Ahundzade Ereb, Fars ve Türk dillerini öyrenmiş, 1879-1883. illerde Gori seminariyasında Azerbaycan dili ve şeriet müellimi işlemiş, Gafgaz Müselmanları Ruhani İdaresinin reisi olmuşdur. Dine, dilçiliye, tarihe, edebiyyata, maarife aid kitabları vardır. Onun "Mügeddes peyğemberlerin tarihi" kitabını H.Z.Tağıyev çap etdirmişdir.

Zagafgaziya Müellimler Seminariyasının Azerbaycan şöbesine ilk defe 1879. ilde 32 nefer gebul olunmuş, bunlardan 24 neferi A.O.Çernyayevski'nin teklifi ile gelmişdi.

Azerbaycan şöbesi 40 il fealiyyet göstermiş, buranı tehminen 240'dan artıg telebe bitirmişdir.

Sefereli bey Velibeyov Seminariyanın ilk mezunlarındandır. O, Şuşa şeher dörd sinifli Rus ibtidai mektebinde ohumuş, 1881-1896. illerde Gori seminariyasında işlemişdir. O, "Veten dili" dersliyinin II hissesini yazmışdır (A.O.Çernyayevski ile birlikde). S.Velibeyov "Üsuli-cedidi-lisani-Farsi" dersliyinin de müellifidir.

Maarifperver ziyalı, Ereb, Fars, Rus ve Azerbaycan dillerini mükemmel bilmişdir. 1896. ilden Bakı'da müellimlik fealiyyetini davam etdirmişdir.

Teymur bey Bayramelibeyov Lenkeran'da molla mektebinde ohumuş, iki sinifli Rus şeher mektebinde tehsilini davam etdirmişdir. O, 1879. ilde Gori Müellimler Seminariyasının ikinci sinfine dâhil olmuş, 1881. ilde tehsilini tamamlamış ve Lenkeran şeher iki sinifli mektebine Rus dili ve hesab müellimi teyin olunmuşdur, "Ziya" adlı Rus-Azerbaycan mektebini açmışdır.

Duma üzvlüyünden istifade eden T. Bayramelibeyov dörd sinifli gimnaziya, 1917. ilde ise yeni tipli gız mektebi açdırmışdır.

İlk tehsilini Nuha şeher Rus mektebinde almış Reşid bey Efendiyev 1879-1882. illerde Gori Seminariyasında ohumuşdur. R.Efendiyev tehsilden sonra Gutgaşınlı ibtidai halg mektebine müdir gönderilmiş, 8 il orda işlemiş, 1890. ilde Nuha'nın Haçmaz kendinde yeni tipli mekteb açmışdır. 1892. ilden tehsilini Tiflis Aleksandrovski Müellimler İnstitutu'nda davam etdirmişdir. 1899. ile geder şeher mektebinde müellimlik etmiş, 1900. ilde Gori Müellimler Seminariyasında şeriet ve Azerbaycan dili müellimi işlemiş, "Uşag bağçası", "Besiretül-etfal" dersliklerini yazmışdır.

R.Efendiyev 1916-1917. illerde İrevan guberniyasının Azerbaycan mekteblerinde inspektor işlemişdir. 1918. ilde Bakı Müellimler Seminariyasını yaratmış ve oranın müdiri olmuşdur. Nuha'da da gadın ve kişi seminariyalarını yaratmışdır.

Mahmud bey Mahmudbeyov da Gori Seminariyasının yetirmesidir. Gence'de Padar kend mektebinde müellimliye başlamış, Şamahı gezasının Dilman ve Kalva kendlerinde, Bakı'nın Sabunçu gesebesinde müellimlik etmişdir. 1898. ilde üçüncü Rus-Azerbaycan mektebine müdir teyin olunmuş, Bakı halg mekteblerinin inspektoru vezifesinde çalışmışdır. "Yeni elifba", "Birinci il", "Giraet", "Türk elifbası", "İlk giraet", "İkinci il", "Üçüncü il" (Abbas Sehhetle birlikde) dersliklerinin müellifidir. Onun 1913. ilde yazdığı "Türk edebiyyatına ilk gedem" kitabı Azerbaycan edebiyyatını nezerde tutan yuharı sinifler üçün ilk müntehebat hesab edilmişdir. M.Mahmudbeyov Azerbaycan Pedagoji İnstitutunda işlemiş, yeni elifba komissiyasının üzvü olmuşdur.

Seminariyanın diger görkemli mezunu Firidun bey Köçerlidir. O, 1872. ilde Şuşa'da Mirze Kerim Münşizade mektebinde Fars dilini öyrenmiş, 1875. ilde onun vasitesile Rus mektebinde ohumuşdur. A.O.Çernyayevski'nin kömeyi ile 1879. ilde

seminariyanın hazırlıg şöbesine gebul edilmiş, 1885. ilde oranı bitirmişdir. 1895. ilden Gori Seminariyasında işlemiş ve 25 il şeriet ve ana dilini tedris etmişdir. F.Köçerli "Balalara hediyye" (1912), "Azerbaycan edebiyyatı tarihi" (1903,1908,1925-1926) kitablarını yazmış, S.M.Genizadeden sonra seminariyada inspektor vezifesinde çalışmışdır. F.Köçerli 10 il İrevan gimnaziyasında müellim işlemiş, M.Zöhrabzade ile birlikde "Telimi-lisani-türkü" dersliyini tertib etmişdir. 1918. ilde seminariyanın Azerbaycan şöbesini Gazaha köçürmüş ve oranın direktor olmuşdur. 1920. ilde Ermeniler terefinden öldürülmüşdür.

Ehmed ağa Mustafayev (1864-1932), Celil Memmedguluzade (1866-1932), N.Nerimanov (1870-1925), Süleyman Sani Ahundov (1875-1937), Semed bey Ağalov (1876-1969), Bedelbey Bedelbeyov (1875-1932), Hacı Kerim Sanılı (1878-1937), Henefi Teregulov (1877-1942), Hüseyn Minasazov (1881-1932), Ferhad Ağazade (1982-1931), Abdullabey Divanbeyoğlu (1883-1936), Üzeyirbey Hacıbeyov (1885-1948), Müslüm Magamayev (1885-1937), Eli Teregulov (1881-1950), Penah Gasımov (1881-1939), Memmed Garayev (1887-1913), İsfendiyar Vekilov (1888-1960), Teymur Hüseynov (1892-1938), Eli Sebri Gasımov (1892-1983), Yusif Gasımov (1896-1957) Gori Müellimler Seminariyasının 70-80-ci iller mezunları sırasındadır. S.M.Genizade ve H.Mahmudbeyov kimi görkemli maarif hadimleri burada ders demişler.

Celil Memmedguluzade Nahçıvan üç sinifli Rus şeher mektebinde, A.O.Çerniyayevski'nin kömeyi ile Gori Müellimler Seminariyasında (1882-1887) ohumuş, Uluhanlı, Baş Noraşen, Nehrem mekteblerinde ders demişdir.

Neriman Nerimanov ilk millî giraethana-kitabhana açmış, Tiflis-Borçalı gezasında, Bakı'da altı sinifli progimnaziyada müellim işlemişdir.

Dövrünün görkemli maarif hadimi olan Süleyman Sani Ahundov 1889-1994. illerde Gori seminariyasında ohumuş, Bakı'dakı üçüncü Rus-Azerbaycan mektebinde müellim, sonra müdir olmuşdur. 4 il sonra Bakı'dakı Lavrov progimnaziyasına müellim işlemiş, 1901. ilden Rus-Azerbaycan mektebinde fealiyyetini davam etdirmişdir. O, ana dili uğrunda mübarize aparmış, Azerbaycan müellimlerinin I gurultayında (1906) ana dili tedrisi ile bağlı olan komissiyanın üzvü olmuşdur. M.Mahmudbeyov, F.Ağazade, A.Ş.Talıbzade, A.Efendiyevle birlikde "İkinci il" dersliyini yazmışdır. Türk ziyalıları istemişdir ki, hemin derslik Azerbaycan dilinde yoh, hem de Osmanlı dil ve edebiyyatı hüsusunda da olsun. Osmanlıperest ziyalılar derslikde K.Uşinski teliminin tesiri güclü olduğundan buna etiraz etmişler.

Azerbaycan müellimleri gurultayının katibi olmuş Üzeyir Hacıbeyov da yeni üsullu mektebde çalışmışdır. O, ibtidai tehsilini Şuşa'da, Rus-Azerbaycan mektebinde almış, 1899-1904. illerde seminariyanı bitirmişdir. Ü.Hacıbeyov Cebrayıl gezasının Hadrut kend mektebinde ders demiş, "Hesab meseleleri" dersliyini, "Metbuatda istifade

İlk "üsuli-cedid" mekteblerinin tesiri, tebii ki, ölkenin mühtelif nahiyelerinde yayılmış, Şuşa, Şeki (Nuha), Gence (Yelizavetpol), Nahçıvan, Şamahı, İrevan'da bu tipli mektebler fealiyyete başlamışdır. Hemin mekteblerin üstünlüyü Azerbaycan dili tedrisinin mecburi olmasında idi.

olunan siyasi, hügugi, igtisadi ve herbi sözlerin Türk-Rus ve Rus-Türk lüğeti" kitabını neşr etdirmişdir. O, Bibiheybetde, "Seadet" mektebinde de ders demişdir.

Ü.Hacıbeyov Peterburg konservatoriyasında ali tehsil almış, Azerbaycan Halg Cümhuriyyetinin dövlet himnini ve "Çırpınırdı Gara deniz" mahnısını yazmışdır. Görkemli bestekar pedagog, edib ve publisist olmuşdur. Onun gohumu Müslüm Magomayev de ibtidai tehsilini Groznı'da almış, 1899-1904. illerde Gori Seminariyasında ohumuşdur. Şimali Gafgaza, Tereke gönderilmiş, Begoviç kend mektebine müdir teyin olunmuşdur. 1905. ilden 1911. iledek Lenkeran şeher mektebinde müellim işlemiş, 1911. ilden Bakı'nın Sabunçu mektebinde müellimlik fealiyyetini davam etdirmişdir.

Azerbaycan'ın Rusiya terefinden işğalı Azerbaycan-Rus ictimai-medeni elagelerinin yahınlaşmasına tesir göstermişdir. Rus telimi, Rus mektebleri ile tanışlıg, yeni tipli mekteblerin açılmasına sebeb olmuşdur. Bu bahımdan "üsuli-cedid" mekteblerinin bir nümunesi de Rus-Azerbaycan mekteblerinin yaranması idi. İlk mekteb tipi Gazah gezasının Salahlı kendinde (1875) yaradılmışdı. Sonra 1887. ilde Bakı'da bir sinifli üçüncü dereceli hüsusi Rus-Azerbaycan mektebi açılmışdır. Tedris planına ana dili, Rus dili, Fars dili, hesab, coğrafiya, tarih ve şeriet fenleri dahil edilmişdir.

Bakı'da fealiyyet gösteren yeni üsullu mekteblerin fealiyyeti Sultan Mecid Genizade ve Hebib bey Mahmudbeyov'un adı ile daha çoh bağlıdır.

S.M.Genizade (1866-1937) Şamahı'da doğulmuşdur. İlk tehsilini mehelle mektebinde almış, S.E.Şirvani'nin teşkil etdiyi "Üsuli-cedid" mektebinde ve Şamahı'dakı Rus mektebinde tehsilini davam etdirmişdir. 1883-1887. illerde Tiflis Aleksandrovski Müellimler İnstitutu'nda ohumuşdur. Hemin ilde Bakı'ya gelmiş Hebib bey Mahmudbeyov'la birlikde ilk yeni tipli Azerbaycan ibtidai mektebini açmışdır. 1905. ile dek burada çalışmış, sonra Gori Müellimler Seminariyasının Azerbaycan şöbesinde müfettiş olmuşdur. S.M.Genizade 1890-1904. illerde dörd hisseden ibaret "Самоучитель тюркского языка", "İstilahi Azerbaycan", "Lüğeti-Rusi ve Türki", "Klidi edebiyyat" eserlerini yazmışdır. 1920. ilden sonra o, Halg Maarif Komissarlığı ve başga elmi-pedagoji müessiselerde çalışmış, 1937. ilde repressiya olunmuşdur.

"Üsuli-cedid" mekteblerinin bir görkemli nümayendesi de Hebib bey Mahmudbeyov'dur. O, Şamahı'da doğulmuş, 1887. ilde Tiflis Aleksandrovski Müellimler İnstitutu'nu bitirmişdir. 1887. ilde Bakı'da S.M.Genizade ile birlikde yeni tipli ibtidai Rus-Azerbaycan mektebini açmışdır. Ana dili esaslı şekilde öyrenilmekle beraber Rus, Fars dilleri, hesab, coğrafiya, tarih fenleri de tedris olunmuşdur. Mektebe yohsul uşaglar celb edilmiş, onların ohumalarına hüsusi gayğı gösterilmişdir. H.Mahmudbeyov 1921-1927. illerde Azerbaycan Pedagoji İnstitutu'nun direktor müavini ve direktoru olmuşdur.

İlk "üsuli-cedid" mekteblerinin tesiri, tebii ki, ölkenin mühtelif nahiyelerinde yayılmış, Şuşa, Şeki (Nuha), Gence (Yelizavetpol), Nahçıvan, Şamahı, İrevan'da bu tipli mektebler fealiyyete başlamışdır. Hemin mekteblerin üstünlüyü Azerbaycan dili tedrisinin mecburi olmasında idi. XIX. esrin sonu ve XX. esrin evvellerinde Azerbaycan'da ibtidai tehsilin genişlenmesinde "üsuli-cedid" mekteblerinin ehemiyyeti böyük olmuşdur.

Dövlet mekteb şebekesinin genişlendirilmesi, elbette, Ruslaşdırma siyasetinden ireli gelmişdi. Lakin tebii ki, buna mügavimet de az olmamışdı. Çar hökümeti ucgarlarda dünyevi tehsilin genişlenmesine imkan vermemiş, ana dili telimini mümkün geder mehdudlaşdırmağa çalışmışdır. M.E.Resulzade Rus-Azerbaycan mekteblerinde müselmançılıg ve millîlik ruhunun aşağı olduğunu nezere alarag yazırdı ki, hefte erzinde 20-30 saat dersden sonra 3 saat Türk diline, 2 saat şeriet derslerine ayrılırdı. 1905-1907. il Rus-burjua ingilabından sonra ise veziyyet bir geder deyişmiş, tehsil layihelerinde millî programlara, millî hüsusiyyetlere üstünlük verilmiş, "bu programa göre mektebler, her şeyden evvel millî olmalı idi. Birinci il telim ancag ana dilinde aparılmalı, sonrakı illerde ise Rus dili mecburi bir ders kimi tedris edilmeli idi" (M.E.Resulzade. İbtidai yerli mektebler. "Tereggi" gez., 20 noyabr 1908-ci il).

XIX. esrin 60. illerinde Rusiya'da başlayan ictimai-pedagoji herekat yerlerde millî mezmunu güclendirmiş, telim-terbiye meselelerinde dönüş yaratmışdı. Rusiya'da K.D.Uşinski'nin teliminin ana dilinde keçirilmesi fikri Azerbaycan'da da geniş müdafie olunmuş, elmi-pedagoji fealiyyeti istigametlendirmişdir. K.D.Uşinski millî dilin ehemiyyetini nezere alarag yazırdı: "Dil neinki halgın heyatiliyini özünde ifade edir , o eyni zamanda mehz heyatın özüdür... Dil halgın bütün çoh esrlik menevi heyatının en dolğun ve en düzgün tarihi olmagla beraber, hele ne kitab, ne de mekteb olmadığı dövrde bele, halgı öyreden ve onu tarihin sonuna geder öyretmekde davam eden böyük halg terbiyeçisidir" (K.D.Uşinski. Seçilmiş eserleri. Bakı, 1953, s.111). K.Uşinski'nin halgçılıg, millîlik ideyası Rusiya'da telimin ecnebi dillerde aparılmasına ciddi tesir etmiş, Rus millî intibahını güclendirmişdi. Azerbaycanda da ana dili teliminin heyata keçirilmesinde Mirze İsmayıl Gasir, Seyid Ezim Şirvani, Mehemmed Tağı Sidgi, Sultan Mecid Genizade, Hesen bey Zerdabi, Mehemmedağa Şahtahtinski, Hebib bey Mahmudbeyov, Mahmud

bey Mahmudbeyov, Firudin bey Köçerli, Sefereli bey Velibeyov, Reşid bey Efendiyev, Üzeyir bey Hacıbeyli, Celil Memmedguluzade, Neriman Nerimanov kimi görkemli maarifçilerin hidmetleri böyük olmuşdur.

Azerbaycanda yeni tipli Rus-Azerbaycan mektebleri ile beraber, millî başlanğıca üstünlük veren yeni mekteblerin açılması suretlendirilmişdir. Bunun esas sebebi Rusiya'dakı pedagoji fealiyyetin millî başlanğıcı ile – K.Uşinski teliminin millî ruhu ile elageli izah edilmelidir. Azerbaycan ziyalıları ana dilli mekteblerin açılmasına daha ciddi sey göstermişler. Telimin esasında ana dili ve millî terbiye meseleleri dayanmışdır. Hatırlayağın: Mirze İsmayıl Gasir Lenkeran'da, Seyid Ezim Şirvani Şamahı'da, Mehemmed Tağı Sidgi Ordubad'da, Nahçıvan'da, Sefereli bey Velibeyov ve Mir Mövsüm Nevvab ise Şuşa'da ana dilli mektebler açmışdılar.

Mirze İsmayıl Gasirin (1806-1900) mektebinde ana dili ile yanaşı Rus, Fars dilleri, edebiyyat, tebiyyat elmleri tedris edilmişdir. O, 1894. ilde "Ganuni-Mirze İsmayıl Gasir" adlı ders vesaiti hazırlamışdır. Görkemli maarif işçisi 18 il Lenkeran'da iki sinifli ibtidai mektebde ana dili ve şeriet müellimi işlemişdir.

Seyid Ezim Şirvani (1835-1888) ise 1869-1870. illerde Şamahı'da "üsuli-cedid", "Meclis" mektebini açmışdır. O, ilk tehsilini Dağıstan'da almış, Ereb, Fars dillerini öyrenmişdir. Bağdad'da, Şam'da ali ruhani tehsili almışdır.

S.E.Şirvani'nin açdığı mektebde Azerbaycan, Fars, Rus dilleri tedris olunmuş, S.M.Genizade, M.E.Sabir ilk tehsilini bu mektebde almışlar. O, dövlet terefinden açılmış yarı mülki, yarı ruhani mektebinde de müellimlik etmişdir. Maarifçi pedagog ve şair "Mecmueyi-asari Hacı Seyid Ezim Şirvani" adlı ders kitabı hazırlamış, lakin onu çap etdire bilmemişdir. S.E.Şirvani "Rebiül-etfal", "Tacül-kütub" ve "Şeriet" dersliklerini tertib etmişdir.

Mehemmed Tağı Sidgi'nin (1854-1903) yeni üsullu "Ehter" mektebi Ordubad'da olmuşdur. 1894. ilde Nahçıvan'da "Terbiye" mektebini ("Mektebi-terbiye") 1898. ilde ise "Gız mektebini" açmışdır. Mehemmed Tağı Sidgi K.Uşinski'nin millî telimine üstünlük vermişdir. 7 derslik yazmışdır: "Mekteb nizamnamesi", "Şagirdler üçün gaydalar", "Heykeli-insana bir nezer", "Hekimane sözler" ve başgaları.

XIX. esrin ikinci yarısında Şuşa'da açılmış "üsuli-cedid" mektebinin müellifi, görkemli maarifçi Mir Mövsüm Nevvab (1833-1918) olmuşdur. O, "Meclisi-feramuşan" edebi meclisine başçılıg etmiş, giraethana, cildhana, metbee ve "üsuli-cedid" mektebi açmışdır. 20'den artıg kitabın müellifi olmuşdur.

Güney Azerbaycan'da, Tebriz'de yeni üsullu telim-terbiye mektebinin yaradıcısı Mirze Hesen Rüşdiyye'dir (1851-1944). O, Cenubi Gafgaz'a gelmiş, mekteb işini öyrenmişdir. İrevan'da 1883. ilde şeher mektebini açmış, 5 ilden sonra Tebriz'e gayıtmış, "Medreseyi-Rüşdiyye" adlı yeni tipli mekteb açmışdır. Lakin telimdeki millî ve dini

mezmun mühafizekarları gane etmemiş, mektebin bağlanmasına sebeb olmuşdur. M.H.Rüşdiyye 1893. ilde "Rüşdeyyeye müzefferiyye" adlı mekteb açmışdır. Bu, XIX. esrden sonra Güneyde ana dilinde ilk Azerbaycan mektebi idi. M.H.Rüşdiyye'nin tertib etdiyi "Veten dili" dersliyi 1894. ilde Tebriz'de neşr olunmuşdur. O, 1897. ilde Tehran'da "Encümeni-maarif" cemiyyeti teşkil etmiş, daha sonra "Rüşdiyye" adlı yeni tipli mekteb açmışdır.

XIX. esrin II. yarısından yeni üsullu mektebler İrevan ve Tiflis guberniyalarında da fealiyyete başlamışdır. Zengibasar, Vedibasar, Zengezur (Gafan, Gorus, Sisian, Meğri), Dereleyez, Göyce, Garagoyunlu, Ağbaba nahiyelerinde de yeni üsullu mektebler açılmışdır.

Tebiidir ki, XIX. esrin ikinci yarısında Azerbaycanda açılmış "üsuli-cedid" mektebleri millî şüur ve mefkureni oyandırmış, maarifperver ziyalıların elm, tehsil, metbuat ve teatr sahesinde fealiyyeti üçün demokratik şerait yaratmışdır. Bu bahımdan "Ekinçi" (1875-77), "Ziya" (1879), "Ziyayi-Gafgaziyye"(1880-84), "Keşkül" (1880-1891), "Kaspi" (1881-1919) kimi metbuat organları, teatr ve opera senetinin inkişafı ehemiyyetli olmuşdur.

Tebiidir ki, XIX. esrin ikinci yarısında Azerbaycanda açılmış "üsuli-cedid" mektebleri millî şüur ve mefkureni oyandırmış, maarifperver ziyalıların elm, tehsil, metbuat ve teatr sahesinde fealiyyeti üçün demokratik şerait yaratmışdır.

Rusiya-Azerbaycan münasibetleri, esasen, normal şeraitde getmişdirse, Türkiye-Azerbaycan münasibetleri çetin şeraitde irelilemişdir. Çünki XIX. esrin II yarısından başlayarag Azerbaycan'da kapitalist igtisadi münasibetleri möhkemlendikce, Azerbaycan'ın Rusiya terefinden işğalı süretlendikce, Azerbaycan-Rus medeni elageleri de güclenmiş, millî maarifçiliyimiz Rus maarifçiliyinin üstünlüyü şeraitinde getmişdir. Tesadüfi deyil ki, Avropa ve Rus burjuaziyasının güclenmesi neticesinde M.F.Ahundzade amili öne çıhmış (materialist felsefe, maarifçi, demokratik-meşruteçi bir görüş) ve maarifçi realizm temayülünü doğurmuşdu. Diger terefden millî Azerbaycan burjuaziyasını yetişdirmek üçün Türk millî burjuaziyasından (o da öz növbesinde Avropa burjuaziyasından) gidalanmışdır. "Türkiye edebiyyatı-cedidesi" millîliyi (milletçiliyi) gabatmış ve bu herekat tenzimat dövrü (1839-1870) Azerbaycan maarifçiliyine tesir göstermişdir. Avropada Monteskyö, Russo, Volter, Şiller, Höte, Türkiyede Namig Kamal, Yusif Ziya, Orhan Seyfi, Enis Behic, Celal Sahir, Farug Nafiz, Ebdülheg Hamid, Eli Canib, Yehya Kemal Türkçülüyü, maarifçi görüşleri güclendirmişdir. Neticede Türkçülük olarag

> Azerbaycan-Türkiye münasibetleri elm, tehsil, tedris ve edebiyyat sahesinde garşılıglı zeminde olmuşdur. Maarifçilik işini temin etmek üçün hem Azerbaycan'dan Türkiye'ye, hem de Türkiye'den Azerbaycan'a ziyalı güvveleri celb edilmişdir.

Eli bey Hüseynzade, Mehemmed Hadi, Hüseyn Cavid ve füyuzatçılıg amili, Rusçulug olarag Mirze Elekber Sabir ve "Molla Nesreddin" amili tarihi-medeni önem kesb etmişdir.

Türkiye'de tenzimat dövründe mekteblerin üç tipi olmuşdur: rüşdiyye (4 illik, ibtidai), edadiyye ( orta ve peşe tehsili üçün hazırlıg pillesi, 4 illik), sultaniyye (6 illik, rüşdiyye ve edadiyyeni birleşdiren). Bunlar maarifçiliyi tebliğ eden ilk Osmanlı lisey-mektebleri olmuşdur.

İstanbul'da 1848. ilde ilk rüşdiyye mektebi açılmış, 1852. ilde 12, 1853'de 25, 1874. ilde 18 rüşdiyye mektebi olmuşdur. Tenzimatçıların Universitet açmag haggındakı 1846. il gerarı 1863. ilde gerçekleşmişdi. 1869. ilde halg tehsili haggında gerar gebul etmiş, 1873. ilde Hoca Toşin Efendinin rehberliyi ile universitet açılmışdır.

Türkiyede "Genc Türkler" ingilabı (1908-1914) dövründe maarif işi heyli inkişaf etdirilmişdir. Azerbaycan'da tehsil, mekteb sahesinde burjuaziyanın verdiyi imkanları Türk burjuaziyasının heyatında da müşahide edirik. Menbelerin verdiyi melumata göre 1908. ilden sonra Türkiyede 36 230'a geder ibtidai mekteb yaradılmışdır. Belelikle, Rusiya'da 1905-1917, Türkiye'de 1908-1914, İran'da 1906-1911. iller ingilabları maarif ve medeniyyetin dirçeldilmesine ciddi tesir göstermişdir.

Azerbaycan-Türkiye münasibetleri elm, tehsil, tedris ve edebiyyat sahesinde garşılıglı zeminde olmuşdur. Maarifçilik işini temin etmek üçün hem Azerbaycan'dan Türkiye'ye, hem de Türkiye'den Azerbaycan'a ziyalı güvveleri celb edilmişdir. Türkiye'den Azerbaycan'a devet olunmuş 50 müellim kadrosı ölkede halg maarifini canlandırmağa seferber olunmuş, derslikler, ders vesaitleri hazırlanmış, millîleşdirilmiş mekteblerde ders deyilmişdir.

Türk ziyalıları Bakı'da, Gence'de, Lenkeran'da tedris işi ile meşğul olmuşlar. 1900. ilde Bakı ve Gence guberniyalarında 5 gimnaziya, 1911. ilde 10 oğlan ve gız gimnaziyası, progimnaziya ve mügeddes "Nina" gimnaziyası fealiyyet göstermişdir. 1917. ile geder Azerbaycan'da 18 orta mekteb olmuşdur ki, burada esasen varlı balaları ohumuşdur. Müsabige imtahanlarında, esasen, bacarıglı uşaglar iştirak etmiş, gimnaziyalarda zadeganların, realnı mekteblerde senaye sahibkarlarının, ticaret mekteblerinde ise tacirlerin övladları ohumuşlar. Dersler Rus dilinde aparılmış, ana dilinde ünsiyyete gadağalar goyulmuşdur. Tebii ki, inkişafı şertlendiren amillerden biri, dediyimiz kimi,

yeni üsullu mekteblerin yaradılması, telimin, esasen, ana dilinde aparılması ve dünyevi biliklerin tedrisine üstünlük verilmesi olmuşdur.

AHC dövrüne geder Azerbaycan'da istisnalar nezere alınarsa, ana dilli orta mektebler olmamışdır. Realnı mekteblerde ana dili derslerine 1-2 saat vaht ayrılmış, mecburi fenn hesab edilmemişdir. 28 avgust 1918. il tarihli gerarla telimin Azerbaycan dilinde aparılması ganunileşdirilmişdir. Bu işde maarif hadimi Abdulla Şaig, Camo Cebrayılbeyli ve Gafur Reşad Mirzezadenin böyük hidmetleri olmuşdur.

XX. esrin evvellerinde Azerbaycanda ali tehsil müessisesi olmamışdır. H.Zerdabi, E.Gorani, N.Vezirov, N.Nerimanov, E.Hagverdiyev, E.Hüseynzade, E.Ağayev, M.A.Şahtahtlı, E.Topçubaşov, A.Sur ve başgaları Avropa, Rusiya ve Türkiye'de tehsil almışlar.

Azerbaycan'a Türkiye'den kadroların getirilmesi prosesi, esasen, 1906. ilden mümkün olmuş, 1914. ile geder güclendirmişdir. Türkçülük mefkuresinin teşekkülü bu illerden başlanmış, müstegillik dövründe hüsusile güclenmiş, Rusiya siyasi olarag buna pantürkizm, panislamizm damğası vurmuşdur. Hüsusile, AHC dövründe gerar gebul edilmiş, Halg Maarif Nazirliyi görkemli Türkolog Ehmed bey Ağayevi işleri gaydaya salmag megsedile İstanbul'a göndermişdir. Azerbaycan'da Türkçülük mefkuresinin yetişmesinde E.Ağayev'in böyük hidmetleri olmuşdur.

Azerbaycan sahibkarları tedris müessiseleri üçün Türkiye'den müellim kadroları devet etmek ve ders vesaitleri hazırlamag haggında gerarlar gebul etmişdir. Bu bahımdan, hüsusile, Gence guberniyasında Elekber bey Refibeyli'nin tarihi hidmetleri geyd olunmalıdır. Millet vekili, AMEA-nın mühbir üzvü, professor Rafael Hüseynov'un "Yurdun adındakı can (Azerbaycan)" kitabında Refibeyliler neslinin maarifçilik işine böyük hidmetleri ehateli ifadesini tapmışdır (Bah: Bakı: "Elm", 2010, 904 s.).

Gösterilir ki, müellimlerinin bir çohu Anadolu Türkü olduğundan kasıb uşaglarının ohuduğu "mekteb-i heyriyye"ler guya Osmanperestlik sebebinden tehlüke menbeyi kimi gapadılırdı" (orada, s122). Bu işde Rusperestlik ve mühafizekar ruhanilerin tesiri güclü olmuşdur.

"1909. ilde "Difai" fedailerindan biri, Gence gimnaziyasının müellimi Mirze Mehemmed Rus gizli polisi terefinden tutularag 5 il müddetine sürgünle cezalandırılmışdı" (s.165). Bele faktlara S.Rüstemhanlı'nın "Difai fedaileri" tarihi romanında da rast gelirik.

Gencede hebshana imamı olmuş müselman Molla Atakişi (Molla Nedi) Rus gizli polisine hefiyyeçilik etmiş, bu işde ona Ermeniler yardımçı olmuş, "Difai" partiyası üzvlerinin bir çohunu ele vermiş, Elekber Refibeyli'nin rehberlik etdiyi bu firgenin gücü ile öldürülmüşdür. Azerbaycan'da Ruslaşdırma siyaseti, Rusperestliyin genişlenmesi, mekteblerin esasen Rus-Azerbaycan (Tatar) mektebleri olması, Rus dilinin telim-terbiye vasitesine çevrilmesini nezere alan M.E.Sabir 1909. ilde yazdığı "Neyleyim, ey vay, bu

Urus başdılar" satirasında istehzayla demişdi:

Neyleyim, ey vay, bu Urus başdılar,
Bilmeyirem hardan aşıb-daşdılar?!
Ölkede günden-güne çohlaşdılar,
Her emele, her işe çulğaşdılar,
Goymayın, ay köhneler, ay yaşdılar!
Heyvereler her yere dırmaşdılar!

Köhne fikirliler, mövhumatçılar ve nadanlar millî yenilik ruhu güclendikce ona garşı mügavimeti artırmışlar. M.E.Sabir bele inadkarlığı, eleyhdarlığı da göstererek onları öz dili ile lağa goymuşdu:

Vay! Bu imiş dersi-üsuli-cedid?!
Yo.......h! Yo.......h! Oğul, mektebi-üsyandı bu!
Molla deyil bundakı telim eden!
Elhezer et, bir yeni şeytandı bu!
Dur gaçag, oğlum, baş-ayag gandı bu!
"Vay! Bu imiş dersi-üsuli-cedid?!"(1909)

Eslen Genceli Abdulla Mehemmedzade Sur (Tofig) 1906. ilde mükemmel bilik elde etmek üçün E.Refibeyli terefinden Türkiye'ye gönderilmişdir. "Elekber bey onun üç il boyunca maliyyeleşdirilmesini Gence'nin maarif-perver varlılarından Hacı Mehemmed Hüseyn'e hevale etmişdi" (yene orada, s.146).

Türk edebiyyatı ile temas H.Cavid, M.Hadi, E.Cavad ve başgalarından bize yahşı bellidir. Gence guberniyası meketblerinde de bu tesir yoh deyildi. Bir fakt da: "Türk edebiyyatının gadın geleminden çıhmış Avropa terzli birinci şeir kitabı olan "Efsus"un müellifi, Tenzimatdan sonrakı edebiyyatın ilk şairesi Nigar Binti Osman'ın (1862-1918) Nigar Refibeyli dünya görüşüne tesiri olmuş, Efsus" adlı şeir kitabını tez-tez mütalie etmişdir (yene orada, s. 128).

Azerbaycan'da XX. esrin evvellerinden başlayarag tehsil ve metbuat inkişafa başlamış, 1905-1907. iller ingilabı millî herekatı genişlendirmiş, neticede maarif müessiselerinin sayı artmış, tehsilin ana dilinde, pulsuz aparılması süretlendirilmişdi. Elbette, maarifçilik işi haman yolla getmemiş, çar hökümeti Azerbaycan'da tehsilin inkişafına bu veya diger derecede mane olmağa çalışmışdır.

O zaman tehsile nezaret megsediyle Gafgaz Tedris Dairesi yaradılmış, nezaret işi Azerbaycan'dakı mekteblerin dahil olduğu Tiflis mektebler direktorluğuna tabe edilmişdi. Bu veziyyet bezi mekteblerin bağlanmasına tesir göstermişdi. Etirazlar çar hökümetinin 1906. il martın 31'inde mektebler haggında gaydaları tesdig etmesine sebeb olmuş, ana dilinde tedris işi hügug gazanmışdı. Bu barede M.E.Resulzade "İbtidai yerli mektebler" megalesinde yazırdı ki, "İbtidai mektebler gerek ki,

millî olsun... Burada telim ana dilinde olsun. Bu mektebler gerek cemaetin meişetine uyğun olsun" (M.E.Resulzade. İbtidai yerli mektebler. "Tereggi" gez., 20 noyabr 1908-ci il). Ü.Hacıbeyov ise yazırdı ki, "bize Türk (Azerbaycan) mektebleri – millî mektebler lazımdır. Men millî mekteb ona deyirem ki, orada bütün elmler öz ana dilimizde tedris olunur" (Ü.Hacıbeyli. Seçilmiş eserleri. Bakı: "Yazıçı", 1985, s.126).

E.Hüseynzade ve füyuzatçılar "milletin tarihi yaddaşının berpasına hüsusi ehemiyyet verirdiler. H.Zerdabi ve onun meslekdaşları ise milletin tereggisini mektebde, tehsil almagda, metbuatda görürdüler"(M.Merdanov. Azerbaycan tehsil tarihi. Bakı, "Tehsil", 2011, s.106)

Azerbaycan'da elm ve tehsilin millîleşdirilmesinde Azerbaycan Halg Cümhuriyyeti'nin tarihi rolu olmuş, ilk universitet yaradılmış, elmi-ictimai fikrin inkişafı ve millî kadroların yetişdirilmesi süretlendirilmişdir.

XIX. esrin sonu, XX. esrin evvellerinde Azerbaycan maarifçiliyinin inkişafında H. Zerdabi, İ. Gaspiralı, E. Topçubaşov, H. Z. Tağıyev, S. Ahundzade, E. Hüseynzade, H. Vezirov, S. Hüseyn, H.C avid, T.Bayramelibeyov, H. Mahmudbeyov, F. Ağazade, A. Şaig, A. Efendiyev, Ö. F. Nemanzade, M. E. Sabir ve A. Sehhet kimi medeniyyet hadimleri böyük emek serf etmişler.

XX. esrin evvellerinde millî tehsilin inkişa-fında "Nicat", "Neşri-maarif", "Seadet", "Sefa" kimi heyriyye cemiyyetlerinin de mühüm rolu olmuşdur. Ümumen, XIX. esrin sonu – XX. esrin evvellerinde Azerbaycan'da 30'dan artıg heyriyye cemiyyeti fealiyyet göstermişdir.

Millî tehsili inkişaf etdirmek megsedile Azerbaycan Müellimlerinin Birinci (1906), İkinci (1907) ve Üçüncü (1919) gurultayları keçirilmişdir.

Azerbaycan'da elm ve tehsilin millîleşdirilmesinde Azerbaycan Halg Cümhuriyyeti'nin tarihi rolu olmuş, ilk universitet yaradılmış, elmi-ictimai fikrin inkişafı ve millî kadroların yetişdirilmesi süretlendirilmişdir.

Esrin evvellerinde "üsuli-cedid" enenelerini Guba ve Lenkeran'da şeher mektebleri, senet mektebleri, Rus-Azerbaycan mektebleri, ilk Azerbaycan gız mektebleri davam etdirmiş, H.Z.Tağıyev, Ş.Esedullayev, M.Muhtarov, M.Nağıyev, İ.Hacınski kimi sahibkarların millî ziyalı neslinin yetişmesi ve halg tehsilinin inkişafında mühüm rolu olmuşdur.

Millî yükselişimiz üçün maarifçilerimizin ekseriyyetinin hem jurnalist, hem de müellim olmaları baresinde artıg yuharıda demişik. Onların ekseriyyeti gezet ve

Azerbaycan ve Türkiye vahid millî dile mensub 2 müstegil dövletdir. Türk dövletleri bu gün de "Dilde, fikirde ve emelde birlik" amacı ile igtisadi-siyasi ve medeni elagelerini davam etdirmekde, maarif ve medeniyyetlerin inkişafına revac vermekdedir.

jurnal açmış, müellimlik etmişdir. Bu sahede esas şüarı "Dilde, fikirde, emelde birlik" olmuş İsmayıl bey Gaspıralı ve onun "Tercüman"ı ilk nümune idi. "Nadir Dövlet "Türk dünyasının nehengleri" sırasından İsmayıl bey Gaspiralıya hesr etdiyi eserinin "Tercümanın gayesi" bölmesinde yazmışdı: "Tercüman" gezeti 1912. ilde Türkiye'den başga Misir'de, İran'da, Hindistan'da, hetta, Merakeş'de de yayılır, sehifelerinde Türk dünyasının tanınmış ziyalılarının yazıları derc edilirdi. Türkiye'den Yusif Akçura, Fuad Köprülü, Ziya Göyalp, Ehmed Muhtar Paşa, Rusiya'dan Remiyev gardaşları, Ehmed Sadri Maksudi, Rizaeddin Fehreddin Nerimanov, Azerbaycan'dan Firudin bey Köçerli, Eli Ekber Refibeyli, Neriman Nerimanov, Osman Akçokralı, Ehmed Özenbaşlı, Hesen Sebri Ayvazov, İbrahim Fehmi ve başgaları gezetin müelliflerinden idiler"(yene orada, s.169). Esrin başlanğıcında Türkiye'den Azerbaycan'a Riza Zaki, Sefvet Akif, İsmayıl Faig, Heyreddin Yusif Efendi ve başgaları kimi tanınmış müellimler devet olunmuş, Türkiye'den derslikler ve mekteb levazimatları getirilmişdir.

Aydındır ki, siyasi sebebler üzünden Azerbaycan'ın Türkiye'ye yoh, Rusiya'ya meyillenmesi Rus-Azerbaycan mekteblerinin geniş şebekesini doğurmuş, Rus-Türk mekteblerinin yaranmasına imkan vermemişdir.

Azerbaycan'da mekteblerin millîleşdirilmesi AHC dövründe mümkün olmuş, Sovet dövründe ise Osmanlı Türkiyesi'le igtisad-siyasi ve medeni elageler gadağan edilmişdi.

Azerbaycan'da dövlet müstegilliyi berpa olundugdan sonra maarif ve medeniyyet işi Rusiya münasibetlerinden Türkiye elageleri müstevisine yönelmiş, daha çoh Türk-Azerbaycan mekteblerinin açılmasına zemin yaratmışdır. Bu bahımdan "Çağ", "Deyanet", "Zeka", "Anadolu liseyleri, "Gafgaz" universitetinin fealiyyeti geyd oluna biler.

Azerbaycan ve Türkiye vahid millî dile mensub 2 müstegil dövletdir. Türk dövletleri bu gün de "Dilde, fikirde ve emelde birlik" amacı ile igtisadi-siyasi ve medeni elagelerini davam etdirmekde, maarif ve medeniyyetlerin inkişafına revac vermekdedir.